**AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**Şərqşünaslıq fakültəsi Türk filologiyası kafedrasının Türk dili üzrə (əlavə şərq dili) bakalavr pilləsi üçün fənn**

# PROQRAMI

**Azərbaycan Təhsil Nazirliyinin 10.07.2012-ci il tarixli 1313 saylı əmri ilə (protokol №16) təsdiq edilmişdir**

**BAKI – 2014**

**Tərtib edənlər:** prof. R.Ə.Rüstəmov
dos. Ş.İ.Qədimova
f.e.n.N.Y.Məmmədova
m.F.H.Həsənova

**Rəyçilər:** dos.C.R.Məmmədova
dos. A.F.İbrahimova
dos.A.A.Məşədiyeva

# GİRİŞ

Şərqşünaslıq fakültəsinin bakalavr pilləsi III-IV kurs tələbələrinə Türk dili əlavə şərq dili kimi tədris olunur. Bu fənnin tədrisi 270 saat (məşğələ) təşkil edir. Rusun məqsədi Türk dilinin qrammatikası əsasında, yazılı və şifahi materiallardan da istifadə etməklə tələbələrə Türk dilini öyrətməkdir.

«Türk dili» fənninin məqsədi və vəzifələri

Türk dili haqqında ümumi məlumat

Ədəbi türk dili və dialektlər.

Türk dili Türkiyə ərazisində yaşayan xalqların rəsmi dövlət dilidir. Hazırda bu dildə 80 milyondan artıq adam danışır. Türkiyə türkçəsi genioloji baxımdan türk dillərinin oğuz qrupuna, morfoloji cəhətdən aqlütinativ (iltisaqi) dillər ailəsinə daxildir.

Türk dilinin inkişafında dönüş mərhələ Türkiyə Respublika elan olunduğundan sonra dildə əsaslı islahatlar keçirilməyə başlanır. «Dil inqilabı» adı altında keçirilən bu islahatların gedişində türk dilinin əlifbası dəyişdirilmiş – ərəb qrafikasından latın qrafikasına keçilmiş (1928), «Osmanlı dili», «Osmanlıca» terminləri «Türk dili», «Türkçe» islahatları ilə əvəz olunmuşdur. 1932-ci ildə Türkiyə Respublikasının banisi M.K.Atatürkün təşəbbüsü və maddi köməyi ilə yaradılan «Türk Dil Kurumu» (TDK) Türk dili sahəsindəki islahatları həyata keçirən nüfuzlu elmi-təşkilati mərkəzə çevrilmişdir. Dildə «özləşmə» hərəkatı, yəni türk dilinin leksik tərkibi yabancı sözlərdən, xüsusi ilə ərəb-fars söz və sintaktik konstruksiyalardan təmizlənməyə başlamışdır. Türklər indiyə qədər müxtəlif əlifbalardan istifadə etmişlər:

1) Göktürk alfabesi (28 hərf)
2) Uyğur alfabesi (28 hərf)
3) Arap alfabesi (29 hərf)
4) Latın alfabesi (29 hərf)

## Fonetika

Fonetika haqqında ümumi məlumat.

Əlifba haqqında ümumi məlumat. Türk əlifbasında 29 hərf vardır, onlardan 8 sait, 21 isə samitdir.

Aa, Bb, Cc, Çç, Dd, Ee, Ff, Gg, Ğğ, Hh, Iı, İi, Jj, Kk, Ll, Mm, Nn, Oo, Öö, Pp, Rr, Ss, Şş, Tt, Uu, Üü, Vv, Yy, Zz

Saitlərin bölgüsü:

Türk dilinin saitləri üç prinsipə görə bölünür:

1. Dilin vəziyyətinə görə:

   a) dilönü və ya incə saitlər: e, i, ö, ü;

   b) dilarxası və ya qalın saitlər: a, ı, o, u;

2. Dodaqların vəziyyətinə görə:

   a) dodaqlanan saitlər: o, u, ö, ü;

   b) dodaqlanmayan saitlər: a, ı, e, i;

3. Ağız boşluğunun vəziyyətinə görə:

   a) gen və ya açıq saitlər: a, e, o, ö;

   b) dar və ya qapalı saitlər: ı, i, u, ü;

Türk dilində alınma sözlərdə saitlərin uzun və ya qısa tələffüzü sözün lüğət mənasını dəyişdirir bu zaman saitlərin üzərində «^» işarəsi istifadə olunur.

Məsələn: adet – ədəd, âdet – adət-ənənə

şura –bura, şûra-şura (elmi)

hala –bibi, hâlâ –hələ, indiyə kimi.

Samitlərin bölgüsü:

Türk dilində samitlər aşağıdakı qaydada təsnif olunur:

1. Səs tellərinin iştirakına görə:

   a) kar samitlər: f, p, ş, ç, k, h, s, t;

   b) cingiltili samitlər: v, b, c, j, d, y, z, m, n, g, l, ğ;

2. Tonun iştirakına görə:

   a) tonsuz samitlər: f, p, ç, ş, h, s, t, k;

b) tonlu samitlər: v, b, c, j, d, g, r, ğ, y;

c) sonor samitlər: l, m, n, r;

3. Əmələ gəlmə yerinə görə:

a) qoşa dodaq samitləri: b, p, m;

b) dil-diş samitləri: d, t, z, s, l, r, ç, c, j, ş;

c) damaq samitləri: k, y, g, ğ;

ç) boğaz samiti: h;

d) dodaq –diş samitləri: f, v;

Türk dilində işarələr:

Uzatma-incəltmə işarəsi:

1. Yazılışı eyni, mənaları müxtəlif olan alınma sözlərdə saitlərin uzun tələffüz edildiyini göstərir:

| | |
|---|---|
| Hala – bidi | hala – hələ; |
| Ali – Əli | ali – ali; |
| Alem – ələm, kədər | aleem – aləm; |
| Şura – bura | şura – şura; |

2. Türk dilində iki danışıq səsinə malik «g», «k», «l» samitləri heca quran «a», «u» saitlərinin üzərinə gələrək həmin samitlərin incə tələffüzünü təmin edir:

| | |
|---|---|
| Katip – katib | rüzgar – külək; |
| İmkan – imkan | karargah – qərargah; |

Ayırma «’» işarəsi

Türk dilində «kesme», «ayırma» işarəsi adı verilən apastrof işarəsindən aşağıdakı hallarda istifadə olunur:

1. Xüsusi isimlərdən hal şəkilçilərindən, həm də digər şəkilçilərdən ayırmaq üçün. Məsələn: Orhan’a Çalıkuşun’dan.

2. Qısaltmalardan (abbreviaturalardan) şəkilçini ayırmaq. Məsələn: TBMM’dan, PTT’ye və s.

3. Rəqəmləri şəkilçilərdən ayırmaq üçün:

**Fonetik qanunlar**.

Müasir türk dilində iki fonetik qanun var:

1. Ahəng qanunu;
2. Samitlərin karlaşması və cingiltiləşməsi qanunu;

**Ahəng qanunu**.

Saitlərin ahəngi iki cür olur:

a) Türk dilində «Böyük ünlü uyumu» adı verilən damaq ahəngi. Burada «a», «ı», «o», «u» saitlərinin və «e», «i», «ö», «ü» saitlərini bir - birinin izləməsi nəzərdə tutulur.

b) Türk dilində «Küçük ünlü uyumu» adı verilən dodaq ahəngi. Burada dodaqlanan saitlərin («o», «u», «ö», «ü») və dodaqlanmayan saitlərin («e», «ı», «i», «a») bir - birini izləməsi nəzərdə tutlur.

Ahəng qanunun pozulduğu yerlər:

1. Mürəkkəb sözlərin bəzilərində; karaciğer, gecekondu;
2. Alınma sözlərin əksəriyyətində: kitap, gazete;
3. Sonu incə «i» samiti ilə bitən alınma sözlərdə: sual, petrol;
4. Sonu «at» hecası ilə bitən bir sıra ərəb mənşəli sözlərdə: inşaat, maksat, iktisat və s.
5. Sonu incə «k» samiti ilə bitən alınma sözlərdə: idrak - idraklı, iştirak - iştiraki; .
6. Türk dilində tək variantlı şəkilçilərdə;
7. «k» bağlayıcısı və ədatının ahəng qanununa tabe olmur.
8. «iken» ahəng qanununa tabe olmur;
9. «ile» qoşması «ise» «idi», «imiş» köməkçi sözləri ayrı yazıldıqda ahəng qanununa tabe olmurlar.

**Samitlərin ahəngi**.

Samitlərin ahəngi kar samitlərin kar samitlərlə, cingiltili samitlərin cingiltili samitlərlə uyuşması deməkdir. Əgər sözün kökü kar samitlərdən (f, p, ş. ç, k, h, s, t)

biri ilə bitirsə ona bitiş dirilən şəkilçinin ilk samiti kar, cingiltili samitlə bitirsə, cingiltili olmalıdır. Məsələn:

| | |
|---|---|
| Balık - balıkçı | okul - okulda |
| Dolap - dolapta | açmak - aştı |

Samitlərin karlaşması və cingiltiləşməsi qanunu.

Türk dilində sözün sonunda cingiltili samitlərdən «b», «c»,»d»,»g» işlədilmir. Onların yerinə həmin samitlərin kar qarşılıqları «p», «ç», «t», «k» işlədilir.

**Fonetik hadisələr**

Yazı ilə əlaqədar fonetik hadisələr, əsasən, səsartımı və səsdüşümü şəklində özünü göstərir.

**Vurğu**

Nitq prosesində hecalardan və sözlərdən birinin daha güclü tələffüzü, akustik cəhətdən digər heca və sözlərdən fərqlənməsi vurğu adlanır.

1. Heca Vurğusu;
2. Məntiqi vurğu;

Durğu ışarələri: nöqtə, vergül, iki nöqtə, sual işarəsi, nida işarəsi, üç nöqtə, çox nöqtə, çizgi (defis) dırnaq işarəsi, mötərizə (böyük və kiçik); paraqraf, tire işarəsi.

Nöqtə işarəsi: rəqəmlərdən sonra qoyularaq miqdar sayında sıra sayı düzəldir -ıncı, -inci, -uncu, -üncü şəkilçisi yerində işlədilir. Çocuk 1 sınıfta okuyor. Uşaq 1-ci sinifdə oxuyur.

Qısaltmalarda TC - T.C. Türkiye Cümhuriyeti.

Vergül işarəsi - geniş və mürəkkəb cümlələrdə cümlənin mübtədasını bariz şəkildə nəzərə çatdırmaq - Dün gece arkadaşımın babası, bize misafir geldi.

Nida işarəsi: Cümlə içərisində hər hansı bir sözdən sonra mötərizəyə alınaraq (!) qoyulursa, bu həmin sözlə ifadə edilən fikirdə mübaliğə olduğu, həmin fikrə qarşı kinayə duyulduğu nəzərə çatdırılır: Bu bilgin kişi (!) her gece bakırı altın (!)

yaparmış.

Dırnaq işarəsi: türk yazısında dırnaq işarəsi sətrin üstündə, yəni hərfin yuxarı hissəsində açılır və yuxarıda da bağlanır: Eski zaman: «İsıramıyacağın eli öp» demiş.

Türk dilində danışıq etiketi.

## ƏDƏBİYYAT


1. Axundov A. Azərbaycan dilinin fonemlər sistemi. «Maarif» nəşriyyatı, Bakı, 1973.
2. Əhmədova K., Çoxkomponentli mürəkkəb cümlələrin təsnifi, "Elm və Təhsil" nəşriyyatı, Bakı, 2013.
3. Dəmirçizadə Ə. Müasir Azərbaycan dili. I. «Maarif» nəşriyyatı , Bakı, 1972.
4. Qurbanov A. Müasir Azərbaycan dili. I. «Maarif « nəşriyyatı, Bakı, 1967.
5. İbrahimova A., Quliyeva Ə., Müqayisəli qrammatika, Bakı, 2013.
6. İmanov G. Oğuz qrupu türk dillərində modal sözlər. "Elm və təhsil" nəşriyyatı, Bakı, 2013.
7. Rəsulov Ə.A., R.Ə.Rüstəmov. Türk dili, Bakı Universiteti nəşriyyatı, 2007.
8. R.Rüstəmov. Türk dilinin morfologiyası, Bakı, Nurlan, 2007.
9. Banguoğlu T. Türk grameri. Birinci bölüm. Ses bilgisi. Türk Tarih Kurumu. Basımevi, Ankara l959; Türkçenin grameri. Baha matbaası. İstanbul, 1974.
10. Ediskun H. Yeni Türk Dilbilgisi. Yükselen matbaası, İstanbul, 1963.
11. Gencan T.N. Dilbilgisi. Gözdengeçirilmiş 2. baskı. Fen fakültesi (Döner sermaye) Basınevi. İstanbul, 1971.
12. Алияров С. О некоторых вопросах фонетики современного турецкого литературного языка. Вопросы тюркской филологии. Изд. -во МГУ, 1966.
13. Кононов А.Н. Грамматика современного турецкого литературного языка. Изд. -во АН СССР, I 556.
14. Шербак А.М. Сравнительная фонетика


## MORFOLOGİYA

Sözün kökü sözün mənah hissəsidir və həmişə leksik mənaya malik olur, heç vaxt dəyişmir.

Qrammatikanın əsas şobələrindən, daha geniş mənada söz və onun qrammatik mənalarını öyrənən sahəsi morfologiya (Yunanca iki terminin birləşməsindən ibarətdir: «morphe«, «morfa» və logos «elm», «təlim»).

Kök. Türk dilində leksik mənaya malik olan, müstəqil şəkildə işlənə bilən, heç dəyişməyən sözə kök deyilir.

Şəkilçilər. Ayrılıqda leksik və müstəqil mənası olmayan, lakin sözlərin köklərinə qoşularaq məna çalarlığı verən hissəsinə şəkilçi deyilir.

Şəkilçilər iki qrupa ayrılır: sözdüzəldici və sözdəyişdirici.

Nitq hissələri. Dilin lüğət tərkibini təşkil edən sözlərin məna, forma və funksiyaları əsasında qruplaşmasına nitq hissələri deyilir. Əsas nitq hissələri (isim, sifət, say, əvəzlik, fel, zərf) köməkçi nitq hissələri (qoşma, bağlayıcı, ədat), xüsusi nitq hissələri (modal sözlər, nidalar, təqlidi imitatif və diffuzlar və s).

İsim. İsim bütün canlı və cansız varlıqlara verilən addır.

İsmin mənaca növləri.

1. Xüsusi isimlər. Varlığı tək olan isimlərin adlarını bildirir, eynicinsli əşyaları bir-birindən fərqləndirməyə xidmət edir.

2. Mücərrəd isimlər. Gözlə görünə bilməyən əşyalara verilən addır: sevinc, acı, üzüntü, kin.

3. Konkret isimlər. İnsan, heyvan, əşya cinsindən olan hər növ konkret varlığın adını bildirir.

**İsimlərin quruluşca növləri**.

1. Sadə isimlər: - Müstəqil mənası olan, şəkilçisi olmayan sözlər: şu yol, ev, goz, taş, çiçek.

2. Düzəltmə isimlər: - isim və fel kökünə müxtəlif sözdüzəldici şəkilçilər əlavə etməklə düzəlir.

a) adlardan lık4, odunluk, taşlık

b) cansız əşya bildirən - ağızlık, gecelik;

c) mücərrəd isimlər - arkadaşlık, gençlik, dostluk;

ç) peşə - sənət bildirən isimlər - şoförlük, marangozluk;

3. Mürəkkəb isimlər - iki və daha çox müxtəlif mənalı sözün birləşməsi ilə yeni mənalar verən isimlərə mürəkkəb isimlər deyilir.

**Mürəkkəb adlar.**

Müasir türk dilində insan adları, soyadları, coğrafi və astronomik adlardan ibarət mürəkkəb isimlərin çoxu bitişik yazılır: Demirtaş, Atatörk, Karakoyunlular, Yeşilırmak.

Ümumi qrammatik kateqoriyalar. Sözlər arasında əlaqə yaratmaq, sözlərin bir-birinə bağlanmasında xidmət gostərənlər.

Kəmiyyət kateqoriyası - əşyalar arasında kəmiyyət fərqini göstərir.

Xüsusi isimlərin cəmi - tək varlığın adını bildirdiyi üçün cəmlik ifadə etmirtər,

Mənsubiyyət kateqoriyası. Şəxs əvəzlikiləri ilə ifadə olunan sahib şəxs, ikinci tərəfində mənsub əşya adlandırılan anlayışdan ibarət olur: Benim kalemim.

İsmin halları. İsimlər cümlədəki vəzifələrinə görə və digər sözlərlə əlaqələrinə görə, müxtəlif hallarda olurlar.

Xəbərlik kateqoriyası - Xəbərlik kateqoriyası şəkilçiləri adlara qoşularaq xəbər vəzifəsində çıxış edirlər.

Sifət. Sifət əşyaları, canlı və cansız varlıqları, mücərrəd anlayışları bir-birindən fərqləndirməyə, əşyanın əlamət və keyfiyyətini bildirməyə xidmət edir.

Sifətin quruluşca növləri. Sadə, düzəltmə, mürəkkəb.

a) Sadə sifətlər. Bir kökdən ibarət olan, əşyanın rəngini, keyfiyyətini, xüsusiyyətini hərtərəfli bildirən sözlərə sadə sifətlər deyilir: - kırmızı, yeşil, köşeli, uzun, hafif.

b) Düzəltmə sifətlər. Söz köklərinə sözdüzəldici şəkilçilərin artırılması ilə düzəlir.

c) Mürəkkəb sifətlər. İki və daha çox sözün birləşməsindən əmələ gəlir.

Sifətin dərəcələri:

1. Adi dərəcə;

2. Azaltma;

3. Çoxaltma dərəcəsi;

4. Müqayisə dərəcəsi;

Saylar:

Sayların quruluşca növləri

1. Sadə saylar;

2. Düzəltmə saylar;

3. Mürəkkəb saylar;

Miqdar sayları: Varlıqların miqdarını bildirir.

Sıra sayları: Varlıqların sırasını bildirir.

Bölüşdürmə sayları: Varlıqları hissə-hissə, yəni bərabər ölçüdə olduqlarını göstərən saylardır.

Kəsr sayları. Varlıqları hissə halında, yəni bir miqdarın müəyyən hissəsini bildirir.

Əvəzliklər. Əvəzliklərin ayrılıqda konkret mənaları yoxdur. Əvəzliklər əsasən isim, sifət, say və başqa nitq hissələriri əvəz edir.

Əvəzliklərin növləri.

1. Sadə əvəzliklər,

2. Mürəkkəb əvəzliklər.

Mənalarına görə şəxs, işarə, sual, qeyri-müəyyən, təyin, inkar, yiyəlik əvəzlikləri.

Şəxs əvəzlikləri. İsmin yerində işlənir.

Şəxs əvəzliklərinin hallanması. İsimlərin yerində işləndiyi kimi, hallana da bilir.

İşarə əvəzlikləri. Bu, şu, o.

Sual əvəzlikləri. Cavab almaq məqsədi ilə işləndikdə, ikinci bir cümləyə ehtiyac vardır. Bu cümlə olmadan əşya və onun əlamətinə aid sual oluna bilmir.

Qeyri-müəyyən əvəzliklər. Naməlum şəxsi və ya əşyanı göstərən, ismin yerində işlənən, isimlər kimi hallanan, cümlədə mübtəda və tamamlıq rolunda çıxış edir.

Topluluq əvəzlikləri. Canlı və cansız varlıqların adlarını bildirir.

İnkar əvəzlikləri. İsmin yerində işlənir və onunla əlaqədə olan felində inkarlıq formasında olmasına şərait yaradır.

**Yiyəlik əvəzlikləri.**

Yiyəlik əvəzliklərinin hallanması.

Qayıdış əvəzliyi. Kendi qayıdış əvəzliyi, şəxs əvəzliyinin bir növüdür.

Fel. İş, hal, hərəkət və vəziyyət bildirən sözlərə deyilir. Felin quruluşca növləri:

1. Sadə fellər.

2. Düzəltmə fellər.

3. Mürəkkəb fellər.

Təsdiq və inkar fellər. İş hal və hərəkətin icra olunub - olan mənasını bildirən felləri həm təsdiq, həm də inkar formasında olur.

Təsirli və təsirsiz fellər.

Felin mənaca növləri. Felin məna növünün müəyyənləşdirilməsində hərəkətin obyekt və subyektə, yaxud hərəkətin subyekt münasibəti əsas götürülür.

Məlum növ, məchul növ, qayıdış növ, qarşılıq növ, icbar növ.

Felin zamanları. İndiki zaman, keçmiş zaman, şühudi keçmiş, nəqli keçmiş zaman, gələcək zaman, geniş zaman (adı çəkilən zamanların təsdiq, inkar, sual və inkarın sual formaları).

Fel şəkilləri. Xəbər, əmr, arzu, vacib, şərt şəkilləri.

Felin mürəkkəb şəkilləri. Mürəkkəb zamanlı fellər üç yerə ayrılır: hekayə, rəvayət, şərt. Mürəkkəb fel şəkillərində işlənən felləri isə mürəkkəb zamanlı fellər deyilir.

Məsdər. Məsdər bir tərəfdən isimlərə, digər tərəfdən fellərə yaxınlaşır, onlara aid olan bir sıra əlamətləri özündə birləşdirir. Türk dilində işlənən məsdər növləri:

1. Asıl mastar ma, - mek;

2. Hafif mastar - ma, - me;

3. Nevi mastar - ış, -iş, -uş, -üş;

4. Ağır mastar - maklık, meklik,

Feli sifət. Türk və Azərbaycan dillərində feli sifətlər, həm felin, həm də, sifətin əlamətlərini özündə daşıyır.

Feli bağlama. Təsrflənməyən fel formalarıdır və xəbər vəzifəsini icra edən felin

iş, hal və hərəkətin tərzini izah edir.

Zərf. İşin icrasını, əlamətini, yerini, miqdarını, səbəb və məqsədini, tərzini, zamanını bildirir.

Zərflərin quruluşca növləri:

1. Sadə zərflər.
2. Düzəltmə zərflər;
3. Mürəkkəb zərflər;

Zərflərin mənaca növləri:

1. Tərzi - hərəkət zərfləri;
2. Zaman zərfləri;
3. Yer zərfləri;
4. Miqdar zərfləri;

Köməkçi nitq hissələri. Müstəqil leksik mənaya malik olmayan və cümlə üzvü kimi çıxış edə bilməyən nitq hissələridir.

Qoşma. İsmin halları ilə idarə olunur:

1. Adlıq hal;
2. Yiyəlik hal;
3. Yönlük hal:
4. Çıxışlıq hal;

Bağlayıcı. Söz birləşməsinin və cümlənin tərkibindəki sözlər, birləşmələr, cümlələr və cümlə qrupları arasında sintaktik- məntiqi əlaqə yaradır. Bağlayıcıların aşağıdakı qrupları vardır:

1. Birləşdirmə;
2. Fərqləndirmə;
3. Qarşılaşdırma;
4. Alternativ;
5. Qüvvətləndirmə;
6. Aydınlaşdırma;
7. Güzəşt;
8. Səbəb;

9. Ardıcıllıq;

10. Məqsəd;

11. Şərt və s.

Ədat. Ədatlar bir sıra xüsusiyyətlərinə görə həm bağlayıcılardan həm də qoşmalardan seçilən köməkçi nitq hissələridir.

Ədatların mənaca növləri:

1. Sual ədatları;
2. İnkar ədatları;
3. Təsdiq ədatları;
4. Qüvvətləndirmə ədatları;
5. Fərqləndirmə ədatları;
6. Emosional ekspressiv ədatları;

Modal sözlər. Sadə modal sözlər, düzəltmə modal sözlər.

Nida. Nidaların mənaca növləri. Təlaş, həyəcan, qorxu, sevinc, şadlıq, heyrət, istehza, nifrət, təəccüb, etiraz, inam, narahatlıq, şübhə, mərhəmət, yazıqlıq, təəssüf, qibtə, əzginlik, yorğunluq, təskinlik, yalvarış, doğum, kədər, arzu, əzab, narazılıq, inciklik, xahiş, xəbərdarlıq, təhdid və s.

Yamsılamalar. Bu söziərin dildə əsas funksiyası canlı və cansız varlıqların çıxardığı səsləri, təbiətdəki müxtəlif səsləri təsvir və təqlid edirlər.

Vokativlər. Vokativlər həm insanlara, həm də heyvan və quşlara ünvanlanan çağırışdır.

İmifaktiv və diffuzlar. Səs təqlidi ilə yaranmış bu sözlərin hələlik inifkasiyası və vahid orfoqrafiyası yoxdur.

## ƏDƏBtYYAT


1. Ə.Rəsulov, R.Rüstəmov. Türk dili, Bakı Universiteti nəşriyyatı, 2007.
2. R.Rüstəmov. Türk dilinin morfologiyası. Nurlan, Bakı, 2007.
3. N.Atabay, Dr.I.Kutluk, S.Özel. Sözlük Türleri. Türk Dil Kurumu Yayınları. Ankara, 1983.

4. Banguoğlu T. Türk grameri. Birinci bölüm. Ses bilgisi. Türk Tarih Kurumu, Basımevi, Ankara, l959; Türkçenin grameri. Baha matbaası. İstanbul, 1974.
5. Gencan T.N. Dilbilgisi. Gözdengeçirilmiş 2. baskı. Fen fakültesi (Döner sermaye) Basmevi. İslanbul, 1971.
6. Джанашиа Н.Н. Морфология турецкого глагола. Изд-во Тбилисского Университета, 1981.
7. Дмитриев Н.К Турецкий язык. М., 1960.
8. Zeynalov F.R, Muasir türk dillərinda kömakçi nitq hissləri. «Maarif» nəşriyyatı, 1971.
9. Кононов А.Н. Грамматика современного турецкого литературного языка. Изд.-во АН СССР, 1956.
10. Müasir Azrbaycan dili. Morfologiya. «Elm» nəşriyyatı, Bakı, 1980.
11. Михаилов М.С. Перифрастические формы турецкого глагола. М., 1965. Сравнительно-историческая грамматика тюркских языков. Морфология., «Наука», 1988.
12. Hüseynzadə M. Müasir Azsrbaycan dili Morfologiya, «Maarif» nəşriyyatı, Bakı, 1983.
13. Шербак А.М. Очерки по сравнительной морфологии тюркских языков (служебные части речи), Л.,1987; Очерки по сравнительной морфологии тюркских языков (глагол). Л., 1981.

## SİNTAKSİS

**I. Sintaksis, onun predmeti əhatə dairasi**.

Sintaktik əlaqələrin növləri: Tabesizlik əlaqəsi, tabelilik əlaqəsi və növləri: a) uzlaşma əlaqəsi, b) idarə əlaqəsi, ç) yanaşma əlaqəsi.

**II. Söz birlaşmələri və əsas əlamətləri:**

Söz birləşələrinin sözlərə bənzər və fərqli cəhətləri. Söz birləşmələrinin mürəkkəb sözlərdən fərqli cəhətləri. Söz birləşmələri və cümlə. Mürəkkəb idarə adları söz birləşmələrinin bir növü kirni.

Söz biriəşmələrində məna və qrammatik əlaqələr.

Söz birləşmələrində sözlərin sırasını müəyyənləşdirən əsas qanun və onun istisnaları. Sadə və mürəkkəb birləşmələr. Sabit söz birləşmələri (statik birləşmələr), Qeyri-sabit söz birləşmələri (Dinamik birləşmələr). İsmi və feli birləşmələr (ümumi məlumat).

İsmi birləşmələrin növləri:

Təyini söz birləşmələri. Şəkilçisiz işmi birləşmələr. Təkrarlar və növləri (omonim təkrarlar, antonim təkrarlar)

Birinci tərəfi şəkilçi qəbul edən ismi birləşmələr. Hər iki tərəfi şəkilçi qəbul edən ismi birləşmələr. Qoşmalı ismi birləşmələr. Nida birləşmələri. Say birləşmələri.

Feli birləşmələr:

Feli birləşmələr və tərkib məsələsi. Feli bağlama tərkibləri. Feli sifət tərkibləri. Məsdər tərkibləri.

Adlarla fellərin birləşməsindən əmələ gələn feli birləşmələr: Adlıq hallı feli birləşmələr. Təsirlik hallı feli birləşmələr. Yönlük hallı feli birləşmələr. Yerlik hallı feli birləşmələr. Çıxışlıq hallı feli birləşmələr. Qoşmalı feli birləşmələr. Məsdərlə felin birləşməsindən əmələ gələn feli birləşmələr. Feli sifətlə felin birləşməsindən əmələ gələn feli birləşmələr. Feli bağlama ilə felin birləşməsindən meydana gələn feli birləşmələr. Zərflə felin birləşməsindən meydana gələn feli birləşmələr.

**III. Cümlə (ümumi məlumat)**

Təsdiq və inkar cümlələr.

Cümlənin məqsəd və intonasiyaya görə növləri:

Nəqli cümlə, sual cümləsi, əmr cümləsi, nida cümləsi.

**IV. Cümlənin quruluşca növləri:**

Sadə cümlə, cümlə üzvləri;

cümlənin baş üzvləri:

Mübtəda.

Mübtədanın quruluşca növləri: a) sadə mübtədalar, b) mürəkkəb mübtədalar.

Mübtədanın ifadə vasitələri:

Səslər, hecalar, şəkilçilər, isimlər, ismi birləşmələr, sifətlər, sifət birləşmələri, əvəzliklər, zərflər, ədatlar.

Bağlayıçılar, nidalar, səs təqlidləri, fellər, feli sifətlər, feli bağlamalar, məsdərlər, söz birləşmələri, cümlələr.

Mübtəda ilə xəbərin uzlaşması:

Xəbər, feli və ismi xəbərlər, təkrarlanan xəbərlər, qüvvətləndirilrniş xəbərlər.

Xəbərlərin ifadə vasitələri (səs, heça, şəkilçi, isim, sifət, say, əvəzlik, zərf, fel, feli sifət, feli bağlama, məsdər, köməkçi nitq hissələri, zərb məsəllər, atalar sözü, cümlələr) xəbər rolunda.

Xəbərin mübtəda ilə uzlaşması: a) şəxsə görə uzlaşma, b) kəmiyyətə görə uzlaşma, v) fel növlərinə görə uzlaşma.

Xəbərin quruluşça növləri. Xəbərin cümlədə yeri. Cümlədə xəbərin düşməsi halları.

**V.Cümlənin ikinçi dərəçəli üzvləri:**

a) Tamamlıq və vasitəsiz tamamlıqlar. Onların növ və xüsusiyyətləri. Qoşmalı vasitəli tamamlıqlar. Tamamlığın quruluşca növləri (sadə və mürəkkəb tamamlıqlar). Tamamlığın ifalə vasitələri. Həmçins tamamlıqlar.

b) atributivin sintaktik ifadəsi olan təyinlər.

Təyinlərin:- əsas ifadə vasitələri.

Məna və ifadə qaydalarına görə zərfliklərin növləri: tərzi-hərəkət zərfliyi, yer zərfliyi, zaman zərfliyi, səbəb zərfliyi, məqsəd zərfiiyi, miqdar zərfiiyi, dərəcə zərfliyi, şərt zərfliyi, qarışıq-güzəşt zərfliyi.

Zərfliklərin quruluşca növləri: a) sadə zərfliklər, b) mürəkkəb zərfliklər.

Zərfliklərin ifadə vasitələri.

**VI. Cümlənin həmcins üzvləri:**

Həmcins mübtədalar, həmcins xəbərlər, həmcins tamamlıqlar, həmcins təyinlər, həmcins zərfliklər. Həmcins üzvlərdə intonasiya.

**VII. Cümlədə sözlərin sırası.**

Cümlə üzvlərinin başlıça sıralanma qaydaları və bunu müəyyənləşdirən «əsas qanun». İnversiya və bunu doğuran səbəblər. İnversiyanın türk dili üçün təbii sayılması.

Cüttərkibli cümlədə sözlərin sırası. Leksik əsaslar üzrə sıralanma. Qrammatik

əsaslar üzrə sıralanma. Situativ sıralanma. I Mətndə söz sırası.

**VIII. Çüttərkibli cümlələr.**

Müxtəsər və sadə geniş cümlələr. Bütöv və yarımçıq cümlələr. Təktərkibli cümlələr və növləri; Ümumi şəxsli cümlələr. Qeyri-müəyyən şəxsli cümlələr. Şəxssiz cümlələr. Adlıq cümlə. Söz cumlə.

**IX. Qrammatik cəhətdən cümlə üzvləri ilə əlaqədar olmayan sözlər və söz birləşmələri, onların ümumi xarakteristikası və növləri**:

a) ara sözlər və ara söz birləşmələri. Ara sözlərin morfoloji tipləri, ara sözlərin məna qrupları.

b) ara cümlələr.

v) xitab. Xüsusiyyəti və ifadə qaydası. Xitablarda intonasiya.

Xitabın quruluşça növləri.

**X. Mürəkkəb cümlə.**

Murəkkəb cümlənin təsnifi: Tabeli, tabesiz mürəkkəb cümlələr. Mürəkkəb cümlələrdə tabelilik və tabesizlik əlaqəsi. Mürəkkəb cümlə tərəflərini bir-birinə bağlayır qrammatik ifadə vasitələri: 1) bağlayıalar; 2) bağlayıcı sözlər; 3) intonasiya; 4) ədat; 5) modal sözlər və s. Mürəkkəb cümlənin əmələ gəlmə yolları haqqında.

**XI. Tabesiz mürəkkəb cümlələr.**

Bunların məna əlaqələri. Cümlə komponentlərində xəbərin ifadə vasitələrinə görə tabesiz mürəkkəb cümlələrin növləri

Məna əlaqələrinə görə tabesiz mürəkkəb cümlələrin təsnifi

1) ziddiyyətli qarşılaşdırma,
2) fərqləndirici qarşılaşdırma,
3) aydınlaşdırıcı qarşılaşdırma,
4) səbəb-nəticə əlaqəsi,
5) zaman əlaqəsi
6) birləşdirmə əlaqəsi.

**XII. Tabeli mürəkkəb cümlələr**

Tabeli mürəkkəb cümlələrlə tabesiz mürəkkəb cümlələrin oxşar və fərqli çəhətləri. Tabeli mürəkkəb cümlə komponentlərini bir-birinə bağlayan vasitələr.

Tabeli mürəkkəb cümlələrin təsnifat prinsipləri. Tabeli mürəkkəb cümlələrin budaq cümlələrə görə təsnifi Mübtəda budaq cümləsi, xəbər budaq cümləsi, təyin budaq cümləsi, tamamlıq budaq cümləsi.

Zərflik budaq cümlələri: Zaman budaq cümləsi, Yer budaq cümləsi. Tərzi-hərəkət budaq cümləsi. Dərəcə budaq cümləsi, kəmiyyət budaq cümləsi. Səbəb budaq cümləsi. Nəticə budaq cümləsi. Məqsəd budaq cümləsi. Şərt budaq cümləsi. Qarşılaşdırma budaq| cümləsi.

**XIII. Qarışıq tipli mürəkkəb cümlələr.**

Qarışıq tipli tabesiz mürəkkeb cümlələr. Qarışıq tipli tabeli mürəkkəb cümlələr

«Diyə» haqqında bəzi qeydlər.

**XlV. Cümlə təhlili prinsipləri**.

Cümlə üzvlərinin tapılması qaydaları

## ƏDƏBİYYAT


1. Ə.Rəsulov, R.Rüstəmov. Türk dili, Bakı Universiteti nəşriyyatı, 2007.
2. R.Rüstəmov. Türk dilinin morfologiyası, Nurlan, Bakı, 2007.
3. Əhmədova K., Çoxkomponentli mürəkkəb cümlələrin təsnifi, “Elm və Təhsil” nəşriyyatı, Bakı, 2013.
4. Banguoğlu T. Türkçenin grameri- İstanbul, 1974
5. Deni Jean. Türk Dili Grameri (Osmanlı lehçesi). Ali Ulvi Elovenin tərcüməsi, istanbul, 1941.
6. Dizdaroğlu H. Tümcebilgisi, Ankara, 1976.
7. Ergin M. Türk Dilbilgisi. İstanbul, Sofya, 1962.
8. Gencan T.N. Dilbilgisi. İstanbul, 1975 (ilkbaskı)
9. Hatiboğlu V. Türkçenin sözdizimi. Ankara, 1972.
10. Abdullayev Ə. Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr. Bakı, 1974.
11. Abdullayev Ə., Seyidov Y., Həsənov A. Müasir Azərbaycan dili. Sintaksis hissə, Bakı, 1972.
12. Bayramov H. Müasir Azərbaycan dilində tabesiz mürəkkəb cümlələr. Bakı,

1958.
13. Budaqova Z. Müasir Azərbaycan ədəbi dilində sadə cümlə. Bakı, 1963.
14. Seyidov Y. Azərbaycan ədəbi dilində söz birləşmələri. Bakı, 1966.
15. Аляров Ш.С. Развернутые члены предложении в современном турецком языке. Изд-во МГУ, 1974.
16. Баскаков А.Н. Словосочетание в современном турeйком языке. М., 1952.
17. Баскаков А.Н. Предложение в современном турецком языке. М, 1984.
18. Маизел С.С. Изафет в турецком языке. 1952.
19. Кононов А.Н. Грамматика современного турецкого литературного языка. М.-Л., 1956.